


Araz Məmmədov
(Yaquboğlu)

# MƏN Şəhidəm

Araz Məmmədov (Yaquboğlu) – dan

Firudin bəy Köçərli adına kitabxanaya

# MƏN Şəhidəm

9AF

MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 132931

BAKI–2024

84(5Aze)+63.3(5Aze)622,8
M 51

**Adını içindəki şeirlərdən biri olan "Mən şəhidəm" şeirindən alan bu kitab fərqli mövzularda şeirlər və kiçik bir hekayəni özündə ehtiva etsə də, məhz bu adın seçilməsi Şəhidlərimizə olan ehtiramın bariz göstəricisidir.**



# ÖN SÖZ

*Oxuyacağınız bu kitab Sizi şeiriyyatın ecazkar aləminə apararaq, misralardakı Araz Məmmədov (Yaquboğlu) qələminin toxunuşu ilə tanış edəcək. Belə ki, şeirsevərlər daha bir hisslərin məcmuəsi ilə tanış olacaqlar. Zira, Araz bəy "Laboratory of Art" incəsənət platformasının idarə heyətinin üzvü olmaqla, həm də gözəl qələm sahiblərindəndir. 2022-ci ildə "Brendbuk" layihəmiz çərçivəsində ərsəyə gətirdiyimiz "Misraların Əsrarı" adlı antologiyamızda da Araz bəyin şeirləri də nəşr olunmuşdur.*

*Öz poeziyasında özünəməxsus dəsti xətti ilə seçilən Araz Məmmədov (Yaquboğlu) şeirlərində gah çağlayan fırtınalı dəniz, gah da çiçək ləçəyindən də incə hisslərin harmoniyasını oxuculara çatdırır. İşlətdiyi epitet və metaforalar bu harmoniyaya rəng qatır, sətirləri oxucunun gözündə canlandırır.*

*"Mən şəhidəm" kitabını Araz bəy, vətənimizin müstəqilliyi, torpaqlarımızın bütövlüyü uğrunda qurban getmiş vətən övladlarının əbədiyaşar ruhlarına ithaf etmişdir. Beləcə də müəllif, şəhidlərimizi öz misralarında yad edərək, onlara ehtiramını bildirir.*

*Əminəm ki, "Laboratory of Art" incəsənət platformasının dəstəyi ilə ərsəyə gələn Araz bəyin "Mən şəhidəm" adlı kitabı əldən, ələ keçərək dillər əbəri olacaq, şeirsevərlərin stolüstü kitabına çevriləcəkdir.*

**Fərid Nəsibzadə**
*Yazıçı, "Laboratory of Art" incəsənət platformasının rəhbəri*



## MƏN ŞƏHİDƏM

Mən Şəhidəm...
Qanım axıb bu torpağa.
Kəfən deyil,
Bükülmüşəm, ay-ulduzlu bir bayrağa...

Qarışıbdı bayrağımın al rənginə,
Oluq-oluq axan qanım.
Mən bir zəfər mujdəsiyəm,
Vətənimə qurban gedib mənim canım...

Mən Şəhidəm...
Ruhum uçubdu dərgaha,
Ölüm deyil,
Bu dönüş uca Allaha...

Sarılıbdı indi mənim tabutuma,
Gözü yaşla dolan anam.
Mən şəhadət öyküsüyəm,
Oxu məni aram-aram...




## EŞQƏ BULAŞDIM

Düşdüm tufanlara, burulğanlara,
Dənizlə çarpışdım, yerlə çarpışdım.
Cismim suda batdı, ruhum batmadı,
Mən eşqə bulaşdım, sənə qarışdım.

İtdim ağuşunda lal dalğaların,
Ləpələr hey döydü sinəmin üstün,
Gözümü dünyaya qapatmam gərək,
Yatıram, üstümü yaxşıca örtün.

Mənli xatirələr ağlatsa səni,
Gözündən damlayan yaşa dönərəm.
İçindən əriyən şam kimiyəm mən,
Məni unutduğun gündə sönərəm.

Nə bir izim qalar, nə də ki, tozum,
Özümlə süpürüb, apararam mən.
Sönən küllərimdən doğula billəm,
Bir gün qucaq açıb, sən mənə gəlsən...



# DÜNYA

Kimini aldadır, kiminə qənim,
Kiminə söyləyir mənəm həmdəmin,
Gah əfi ilandı, gah da nazənin,
Qısa bir yuxudu eləcə dünya.

Soldurar bağçanın çiçəklərini,
Soldurar gülünün ləçəklərini,
Ədalı qızların birçəklərini,
Ağardıb, belini bükəndi dünya.

Özü yalançıdı, sözü yalançı,
Şəklini dəyişən üzü yalançı,
Qoca qəsbkardı, qoca talançı,
Səni elə səndən alandı dünya.

Çoxunu aldadıb, salıb toruna,
Mən-mən deyənləri salıb goruna,
Dünən yanğısına, bu gün qoruna,
Müsəbbib olanıdı balaca dünya.

Əvvəli bəllidi, son ucu bəlli,
Özünə vermə gəl, yalan təsəlli.
Yaxasından yapış istər beş əlli,
Nəşini qoynuna alandı dünya.








# PAYIZ SEVDİYİM

Gəl gedək payıza, küləklər əssin,
Qoy bu üşüməyim təngimi kəssin,
Bu yağan yağmurun, üşümək hissin,
Yerini nə verər, de, ey sevdiyim!

Sovrulaq xəzantək belədən-belə,
Dəli rüzgarlara sinə gər hələ,
Adam lap istəyir payızda ölə,
Buludlar göz yaşın tökə, sevdiyim.

Mənim ruhum payız, cəsədim payız,
Mürəkkəbim payız, qələmim payız,
Biz ki bir-birindən ayrı olmayız,
Ey payız qoxulu, payız sevdiyim!



## UNUTMUŞAM

Unutmuşam daha sənli günləri,
Xatirələr qaranlıq bir quyuda.
Unutmuşam, yaşayıram yoxsa yox,
Qış da gəlmir bu yanğını soyuda.

Unutmuşam uşaqlığı, gəncliyi,
Ahıl adam təki əllərim əsir.
İti bıçaq kimi ömrümə girib,
Yarama duz basır, yenidən kəsir.

Unutmuşam yaraların sayını,
Yara açan kimdir, nədir, onu da
Tanımıram, bu dünyada elə şey
Unutmağın acısını ovuda...

Unutmuşam unutmağın özünü,
Bu unutmaq bir ayrıdı, bir yaddı.
Mən özümü unutmuşam büsbütün
Bəlkə də bu ruhdan qopan fəryaddı.





## SƏSSİZ GECƏLƏR

Quruyub ağzımda dilim, dodağım,
Mən eşq dənizində yelkənsiz gəmi.
Sənsiz gecələrim dilini udub,
Səssiz səmirsizdi, lal olub yəni...

O səssiz gecələr səssiz inləyər,
Bağırıb-çağırar səhərə qədər.
Kimsə duya bilməz, kimsə eşitməz,
Onun mayasında yoğrulub kədər...

Səmirsiz gecələr ocağa dönüb,
Yandırıb deyəsən köksünü sənin.
Su səpdin üstünə söndürmək üçün,
Alov suyu sevdi, sənsə bilmədin.

Artıq neçə illər üstünü örtüb,
Doğma gecələrin biz yadlarıyıq.
Məhəbbət nağılı almayla bitib,
Biz bir quşun qopan qanadlarıyıq.



# ÖLMÜŞƏM BƏLKƏ DƏ...

Səndən uzaqlarda yalnız adayam,
Yerimi bilən yox, izim itibdi.
Könlüm simi qırıq kaman kimidi,
Köksümdə acının kökü bitibdi.

Saralıb-solmuşam payız misalı,
Qış gəlib qapıya dondurmaq üçün.
Bir yığın oduntək qalaqlanmışam,
Sevda ocağında yandırmaq üçün.

Ölmüşəm bəlkə də, mənə deyən yox,
Bəlkə can verirəm, bəlkə də yoxam...
Bu yoxluq içində ən son istəyim
Sənin gül ətrini son dəfə qoxam...







# YADA DÜŞƏR

Unuduldu bu sevgi də beləcə,
Yada düşər xatirələr arabir.
Albomdakı o ağ-qara şəkillər,
Baxar mənə susqun-susqun eləcə.

Oğrun-oğrun baxışardıq onunla,
Gözlərində sehir vardı bəlkə də.
Dünya mənə dar gəlirdi, sıxırdı,
Olmayanda o, keçdiyim küçədə.

Yada düşər ilk məktub həyəcanı,
"Nə yazacaq?" deyə, ürək əsərdi...
Gecikəndə cavab hərdən, elə bil,
Hər ötən gün həsrət məni kəsərdi.

Tək qalanda lal olurdu dilimiz,
Nə mən danışırdım, nə o dinirdi.
Abır-həya, yoxsa qorxu, həyəcan...?
Amma onu sevdiyimi bilirdi...

Bir ağ vərəq, bir qələm danışardı,
Onun da yerinə, elə mənim də,
İndi o çağlardan xatirə kimi,
Məktublar yaşayır mənim evimdə...



## AXI

Mən səni qoxladım güllər içindən,
Sıxdım ürəyimə ellər içindən,
Yağmurlar, tufanlar, sellər içindən,
Qoruyub hər kəsdən, gizlətdim axı...

Mən səni aradım hər gün, hər saat,
Durmadı bir an da, ürək fərağat.
Gecə yuxumda da olmadım rahat,
Ömrümü sevginlə tükətdim axı.

Mən səni özlədim divanələr tək,
Şəmə qurban gedən pərvanələr tək,
Qarşında dayandım, dil oldu pəltək,
Yarama duz basıb, göynətdim axı.

Qoxunu içimə çəkdikcə çəkdim,
Səndən öncə sanki dünyada təkdim,
Sən mənə bayraqdın, mənsə dirəkdim,
Köksümü sevginlə titrətdim axı...



## PAYIZ SEVGİSİ

Sərin bir meh kimi köksünə əsib,
Payızla gəlmişəm sənin ömrünə.
Dolub nəfəsinə, axıb ruhuna,
Dönüşmüşəm sanki sənin özünə.

Mən həm də payızın sarısındayam,
Yağan yağmurunda, əsən yelində...
Xəzan xışıltısı səsimdi mənim,
Yağış damlasıyam sənin telində.

Payız elə mənəm, sənsiz solmuşam,
Sənli günlərimin xatirəsiyəm.
Bir az da geciksən öləcək payız,
Bir nakam sevginin zümzüməsiyəm.



# DARIXARSAN

Darıxarsan hələ çox...
Yadına düşdükcə mən.
Üz çevirib həyatdan
Hər gün biraz bitərsən.

Çağlayan ümman kimi,
Daşarsan sahillərə.
Bəlkə sakit bir gecə
Öz gözündən itərsən.

Ağlayarsan uşaq tək,
Göz yaşların quruyar,
Bunu qaldırmaz ürək,
Həmişəlik çökərsən.

Xatirəm səni kəsər
Olub iti bir bıçaq.
Yarana duz olaram,
Özündən əl üzərsən.

Bir cüt nəmli baxışlar
Hər yerdə gəzər məni,
Hansı tərəfə baxsan
Mənsizliyi sezərsən.

Ömür dediyin qısa,
Zaman keçir durmadan.
Yolum o tərəfdədi,
Lap yanıma köçərsən...







# SƏNİ XATIRLADIR

Pəncərəmə düşən bir damla yağış
Səni xatırladır hər zaman mənə.
O yağış qəlbimin içinə yağmış,
Süzülür damlası köksüm üstünə.

Səni xatırladır səssiz küçələr,
Küləyin əsməsi, yağışın səsi.
Həyatıma çökən qara gecələr,
Coşan bir dənizin mavi ləpəsi.

Səssiz hər bir yerdə sanki sən varsan,
Səni xatırladır ulduzlu səma.
Üzümə toxunur sanki nəfəsin,
Sənsiz boşdu mənə bu fani dünya.



## SƏN

Sən gözlərimdən axan, bircə damla yaş kimisən...
Süzüldükcə yanaqlarımı yandıran,
Kipriklərimə nəm qatan,
Məndən yaranıb, məni yaxan...
Sən məndə axan qan kimisən...

Sən səssiz və zülmət bir otaqda yanan şəm kimisən...
Toxunsam yandıran,
Sönsən məni kor buraxan,
Əridikcə sanki köksümə damlayan.
Sən məndə olan can kimisən...

Sən hər nəbzədə möhtaclıqla aldığım nəfəs kimisən...
Ruhuma can verən,
Ürəyimi döyündürən,
Unutsam öldürən.
Sən məndə elə mən kimisən...




## SEVDİM

Mən səni gündüzlərimə parlayan günəş kimi sevdim, qadın!
Gecələrimə nur saçan ay kimi,
Köksümdən axan çay kimi,
Səssiz gecələrimdə sevdim səni.

Mən səni kamanına həsrət yay kimi sevdim, qadın!
Qəlbimə saplanmış ox kimi,
Həm var, həm də yox kimi,
Qanayan yaralarımda sevdim səni.

Mən səni bir cüt gözdən axan yaş kimi sevdim, qadın!
Ürəyimə yağan bəmbəyaz qar kimi,
Ocağıma düşən qor kimi,
Mən səni bir başqa sevdim.



F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 132931

# QARA SEVDA

Səssiz gecə,
Yalnız qalmış küçələr.
Bilməm necə
Sənsiz açılır səhər...

Narın yağış daha məni islatmır,
Çökən zülmət gözlərimi qaraltmır,
Daha heç nə məndə ilham yaratmır,
Boğur məni dəli-dolu bir qəhər,
Ağlatmır...

Əsən külək sanki dəymir üzümə,
Qəm yığılıb nəmlə dolan gözümə,
Əldə qələm daha baxmır sözümə,
Tutub məni ruhuma çökmüş kədər,
Buraxmır...

Səssizliyi pozur ürəyin səsi,
Qulağıma gəlir onun naləsi.
Hərdən onu döyür ağlın tənəsi,
Deyir, söylə, nədir dərdin birtəhər,
Anlatmır...

Xatirələr qəlbi didir, dağıdır,
Qənim olub, elə bil ki yağıdır.
Qara sevda bu sevdanın adıdır,
Xəstə edib cismidə canı dilbər,
Sağaltmır...





# NİYƏ QARŞILAŞDIQ

Niyə qarşılaşdıq, de, axı niyə?
Axı biz qaçırdıq bir-birimizdən.
Sanki gözlərində donmuşdu zaman,
Acı damlayırdı gözlərimizdən.

Niyə dayanmayıb, sarıldın mənə?
Qoxladın boynumu, körpə uşaq tək...
Niyə əllərindən tutdum axı mən?
O qəmli baxışlar necə də hürkək...

Qıymadım toxunam dodaqlarına,
İndi o dodaqlar mənimki deyil.
Saçların toxundu birdən üzümə,
Elə bil keçməyib nə aylar, nə il...

Sənsiz nə acılar çəkdim sanırdım,
Sənin acıların daha çox imiş.
Danışdı gözlərin iztirabını,
Həm varmış həyatın, həm də yox imiş...

Nə qədər gizlətmək istəsən də sən,
Səsin titrəyirdi, səsin əsirdi.
Ölüm saçlarında gəzdi bircə an,
Nəfəsin köksümü sanki kəsirdi...

Daha rast gəlməyək bir-birimizə,
Nə sən acılara boğul, nə də mən.
Həyatın hər zaman gülsün üzünə,
Neyləyək, məhəbbət bizlərə düşmən...





## KİTABXANA

Qocaman bir kitabxana,
Toz basmış bir qalaq kitab.
Kitabların ağuşunda,
Qaranlıq bir küncdə duraq.

Kitab iyi qarışsın qoy sevgimizə,
Vərəqlərin pıçıltısı mənə versin səndən soraq.
Gəl qovuşaq şeirlərin sətirində, misrasında,
Kitabların arasında gəl yox olaq.








## SƏNİ ELƏ UNUDARAM

Səni elə unudaram...
İlmə-ilmə, qram-qram.
İlk baharda buz kəsərəm,
Rüzgarlarda sovrularam.

Bıçaq olub, tikə-tikə
Doğrayaram ürəyimi.
Qan udaram su yerinə,
Dağlayaram kürəyimi.

Elə görünərəm sənə
Sanarsan ki, xoşbəxtəm mən.
Öz-özündən küsmüş adam,
Parçalanmış bir əhdəm mən.

Yamaclarla olmaz işim,
Zirvələrə yağan qaram.
Bir gecənin zülmətində
Səni elə unudaram...



## BU SEVGİ

Mən ki sakit-sakit axan bir çaydım,
Coşdurdu məhəbbət, məcramdan caydım.
Sənsiz saatları il kimi saydım,
Ruhumu bədəndən aldı bu sevgi.

Dalğam çırpılırdı sahillərinə,
İlişdim sevginin naqillərinə,
Sordum eşq əhlinin aqillərinə,
Niyə can evimdən vurdu bu sevgi?

Mənə söylədilər divanəsən sən,
Şəmə qurban getmiş pərvanəsən sən,
Səssiz-səmirsizcə yıxılıb ölsən,
Bil ki, səbəbkarı elə bu sevgi.

Daha mən nə deyim bu məhəbbətə?
Saldı varlığımı acı möhnətə.
Üzümdə təbəssüm döndü zillətə,
Məni yerdən-yerə vurdu bu sevgi.



## BİLMİRƏM

Bağışla, sənsizlik üzüb canımı
Yeriyə bilmirəm, qaça bilmirəm.
Hər yer qaranlıqdı, zülmətdi sənsiz
Daha işıq olub, saça bilmirəm.

Nə vaxtdı saçların üzümə dəymir,
Qoxunu içimə çəkə bilmirəm,
Həsrətin çəkirəm mən o vaxtların,
Nə yaşamaq olmur, nə də ölmürəm.

Çarəsi de nədir bu məhəbbətin?!
Sənə qovuşmaqmı, yoxsa... bilmirəm...
Elə alışmışam, sönməyim çətin,
Alovdan, tüstüdən heç nə görmürəm.



# CAN

Canı cismimdən alan can dəxi bilməm harada?
Atdı bu fanini odların içində burada.
Arabir görcək olurdum o gözəl zülfünü mən,
Nədən o gül camalı günlər oldu heç görməm?!

Gözləri sanki günəşdi, parlar idi üzümə,
Qaşları yaylı kamandı, oxu vurmuş gözümə.
Aldı ağlımı başımdan onu ilk gördüyüm an,
Adını ansam o yarın, nur saçarmış sözümə.

Ləbləri şirindi baldan o ədalı mələyin,
Nazı öldürdü məni, cəlladı olmuş fələyin.
Nə qədər çəkdirəcək bilməyirəm cövrü-cəfa,
Sovurub, qanını çəkmiş bu yaralı ürəyin.

Töküban zülfü göz üstə bağrımı qan eləyir,
Məni əğyarın içində o gözəl xar eləyir.
Əsiri olmuşam artıq o ədalı sənəmin,
Neyləsəm əldə deyil, məni haldan-hal eləyir.







*İllüstrasiya:
Fərid Nəsibzadə*

# DONUB

Zaman sanki donub, işləmir saat.
Əqrəblər dönməyir daha tələsik,
Ayrılıq quşları uçur havada,
Gedirəm onlarla mən də, hələlik...

Gedirəm təkliyə, yalnız bir yerə,
Qapanım özümə, özümlə qalım.
Can üstədi ruhum, titrəyir yaman,
Görməsin qoy bunu vəfasız zalım.

Yayın istisində sanki qışdayam,
Donub ciyərimə çəkdiyim nəfəs.
Üşüyür cismimin hər bir zərrəsi,
Daha hər şey gecdi, hər bir şey əbəs.

# DƏLİSOV QADIN

Görəsən düşürəm yadına onun?
Yağış süzüləndə pəncərəsindən...
Gözləri gəzirmi məni hardasa?
Özləyirmi məni dəlisov qadın?

Görəsən düşürəm yadına onun?
Payızda ağacdan yarpaq düşəndə...
Yarpağın rəngindən fikrə dalırmı?
Özləyirmi məni dəlisov qadın?

Görəsən düşürəm yadına onun?
Soyuqdan üşüyüb, titrəyən zaman...
Adımı anırmı tənha qalanda?
Özləyirmi məni dəlisov qadın?

Görəsən düşürəm yadına onun?
Gecənin zülməti çökdüyü vaxtda...
Yastığı mən bilib, qucaqlayırmı?
Özləyirmi məni dəlisov qadın?




# DƏNİZ, GÖY, SƏN

*(Nəbi Xəzrinin "Dəniz, Göy, Məhəbbət" şeirinə nəzirə)*

Əlini uzadıb, dənizə sarı,
De, nə gileylənib, nə söylənirsən?!
Göy dəniz bəlkə də, göylərin yarı,
Niyə gözlərinlə gileylənirsən?

Dənizi hədiyyə vermə mənə gəl,
Səndən axı dəniz istəmirəm mən...
Göylər də deyildir sevgimə əngəl,
Baxsan gözlərimə səni görərsən.

Qoy dəniz gizlətsin məhəbbətimi,
Göylər də üstünə yağmur ələsin...
Bir damla göz yaşın yuyar dənizi,
O gözlər olmasa dəniz neyləsin?

# ANMA ONU

*(Vüqar Rahi-nin "Mənə biraz ondan danış" şeirinə nəzirə)*

Quruyaydı dilim elə, deyəndə ki,
mənə biraz ondan danış...
Lal olaydım o anda kaş,
Sən də gərək dinməyəydin...
Deyəydin ki, onu çoxdandı görmürəm,
Unut onu yavaş-yavaş...

Fikir vermə, baxma mənə.
Anma onu yanımda heç!
Əzab verir xatirələr,
Hər şey danış, bir ondan keç.

Uzaq olsun, məndən uzaq...
Qoy Tanrıya yaxın olsun, məndən iraq.
Qanatdığı yaraları hələ sara bilməmişəm,
Ox-yayını daha etsin məndən qıraq.

Yalvarıram, anma onu!
Adını da daha duymaq istəmirəm...
Öz-özündən küsməyə yox daha ürəyin taqəti,
Sevgisinə bir də onun, daha uymaq istəmirəm.

Bilirsənmi, o yaşayan məhləyə də getməyə yox cəsarətim,
Onu görsəm, gözlərində bataram mən...
Bitməyibdi hələ mənim ürəyimi didik-didik parçalayan
Mənə cəllad kəsilən bu məhəbbətim...





# EŞQ DEDİYİN

Eşq dediyin nədir, ey dəli könlüm?!
Köksümdə çağlayan dəli nəfəsmi?
Günəşə doğrulub, cücərən toxum,
Ruhumu oxşayan incə bir səsmi?

Eşq dediyin nədir, ey dəli könlüm?!
Küləkdə sovrulan bir yarpaqdımı?
Gurlayaraq axan nazlı şəlalə,
Yoxsa ki, xəbərsiz gələn qonaqmı?

Eşq dediyin nədir, ey dəli könlüm?!
Yanağa süzülən qəmli yaşdımı?
Sinəmə saplanan bıçaq yarası,
Bir cüt ala gözün üstə qaşdımı?

Eşq dediyin nədir, ey dəli könlüm?!
Narın-narın yağan yağmur səsimi?
Kəlmələr acizdi deyilən nöqtə,
Qəlbi əsir alan eşq qəfəsimi?



## GECƏLƏR

Gecələr bağrımın başında qandı,
Gecələr ömrümə sanki zindandı.
Gecələr zülmətdi ömrümə, gülüm,
Sənsiz gecələrim necə yamandı...

Gecələr bir başqa üzülər insan,
Gecələr acıyla süzülər insan,
Gecələr talandı ömrümə, gülüm,
Qalan boş ümidlər, bir də gümandı.

Gecələr gündüzə çıxmayır daha,
Gecələr ətrini qoxmayır daha,
Gecələr dənizdə burulğan gülüm,
Sonu görünməyən, ucsuz ümmandı.

Gecələr ruhumu əsir alıbdı,
Gecələr bədənim ruhsuz qalıbdı,
Gecələr köksümə leysandı, gülüm,
Mənə toxunmasın kimsə, amandı...



## GÜLÜM

Yağmur olub, üzərimə damla-damla yağma gülüm.
Leysan ol, yağ!
İslat mənim ruhumu gəl,
İslat hər bir zərrəmi sən gözəl-gözəl...

Bulud olub, topa-topa üzərimdə durma gülüm,
En aşağı,
Gizlət məni ağuşunda,
Özlət məni bəmbəyaz qarlı qışında...

Küləy olub, sevgimizin üzərinə əsmə gülüm,
Əs hicrana, ayrılığa.
Qov sevdadan acıları, kədərləri,
Sal heyrətə eşqimizin şöləsini görənləri...

Dəniz olub, sakit-sakit ləpələnib, axma gülüm...
Dayanmışam sahilində,
Fırtına ol, çıx məcrandan, ömrümə daş,
Bu dünyada təkcə sənsən mənə sirdaş.

Gecə olub, gündüzümə çökmə gülüm.
Çök gecəmin zülmətinə,
Gündüzləri günəşim ol, gecə ayım,
Ulduz olub, səpələn gəl göy üzünə, səni sayım...



## GƏRƏK

Gülü ləçəyindən,
Dağı qarından,
Arını balından,
Tanıyan gərək.

Ocağı qorundan,
Eşqi yolundan,
Dənizi qumundan,
Tanıyan gərək.

Mən bir pərvanəyəm şəminə yanan,
Yanıb, alovlanan, tüstüsü duman.
Bulud topasıyam, yağmayıb, qalan,
Məni görmək üçün ürəyin gərək.





## YAĞIŞDAN RİCA

*(Bu şeir vətən müharibəsi zamanı yağışlı bir gündə ürəkdən ağ vərəqə süzülmüş kiçik bir parça...)*

Yağma yağış əsgərimin kürəyinə,
Sən ondansa yağ birbaşa elə mənim ürəyimə...
İslat məni başdan-başa,
Cismimi də, ruhumu da,
Dəymə mənim əsgərimə!
O əsgərim qan axıtmış vətənimin özəyinə...



# MƏNİM ANAM

Saçlarına düşən dəndə,
Alnındakı qırışlarda,
Uşaqlığım, ilk gəncliyim yatır mənim.
Sevgi ilə baxan, qəmli gözlərində...

Gəncliyini yox etdiyin, beşiyimin kölgəsində,
Dönə-dönə oxutduğum nağıllarda,
İlk sevincim, ilk kədərim yatır mənim.
Saçlarıma sığal çəkən əllərində...

Varlığımı tapmışam mən elə səndə,
Qayğı dolu baxışlarda,
Cəsarətim, sədaqətim yatır mənim,
Mənim anam! Söylədiyin sözlərində...



# MƏNİM DÜNYAM

Mənim dünyam
Qumlu sahil, ləpədöyən...
Bəzən coşan, bəzən sakit.
Külək də var bu dünyada,
Tufan, boran, ani sükut...
Anlamazsan, mənim dünyam mənə aid.

Mənim dünyam,
başı qarlı uca bir dağ,
Zirvəsində donarsan sən, ətəyində üşüyərsən,
Üzərində qara bulud bu zirvənin,
Yamacında gizli sükut...
Analamazsan, mənim dünyam mənə aid.

Mənim dünyam,
sirr qapısı,
Qalaq-qalaq kitablarda gizli açar,
Bəlkə də, heç açılmadı ömrü boyu,
Paslı kilid...
Anlamazsan, mənim dünyam mənə aid.



# MƏNƏ BİRAZ ZAMAN VER

Mənə biraz zaman ver...
Səni unuda bilim.
Silə bilim gözümdən, gözlərinin rəsmini.
Gözümü yumanda da, açanda da eynidi,
Hər yerdə ancaq görür, surətinin əksini.

Mənə biraz zaman ver...
Sönsün yaxdığın atəş.
Oynama közləriylə, yandırarsan əlini.
Axı sən bilməyirsən acı nədi, qəm nədi,
Bu kədəri yüklənən dik tutammaz belini.

Mənə biraz zaman ver...
Sənsizliyi öyrənim,
Alışım ciyərimə sənsiz nəfəs çəkməyi.
Bir vaxt inanmaz idim sənsiz olar bir günüm,
Sanki boğazımdadı həsrətinin ilməyi.

Mənə biraz zaman ver...
Söhbət edim ürəklə,
Görüm axı nə olub, mənim günahım böylə?
Salıb məni bu zülmət, işkəncə quyusuna,
Nə deyim ki, çıxarsın, məni ordan, sən söylə!

Mənə biraz zaman ver...
Çıxıb gedim buradan,
Gedim çox uzaqlara, sən olmayan yerlərə...
Nə sənə əlim çatsın, nə də ki, görsün gözüm.
Yoxsa burda dikilib gözüm ancaq göylərə.



Mənə biraz zaman ver...
Bəlkə bunlar bir röya,
Ayılacam yuxudan, görəcəm ki gəlmisən,
Oxşayırsan saçımı, deyirsən ki gecdi, dur...
Elə dərin yatmısan, elə bil ki ölmüsən...



# MƏNƏ ONDAN DANIŞ

Onun saçlarında dən elə mənəm,
Gözləri dolanda orda nəm mənəm,
Onun ağuşunda ölmək istərəm,
Mənə ondan danış, ondan de, adam!

Mənsiz günlərini necə keçirir?
Deyirlər yamanca o köks ötürür,
Bəlkə də yoxluğum onu bitirir,
Mənə ondan danış, ondan de, adam!

Yenə yeriyirmi hürkək ceyran tək?
Mənə o hər kəsdən bir ayrı, bir tək!
Görəndə zülfünü olurdum pəltək,
Mənə ondan danış, ondan de, adam!

Baxışları yenə canlar alırmı?
Adımı görəsən o heç anırmı?
Məni kimsələrdən xəlvət sorurmu?
Mənə ondan danış, ondan de, adam!

Gecələr gözünə gedirmi yuxu?
Saplanmış qəlbinə sevdanın oxu
Onsuz ölməyimdən duymurmu qorxu?
Mənə ondan danış, ondan de adam!







# OĞLUM

Bu namərd dünyada mərd kimi yaşa,
Aldanma cəvahir-lələ, daş-qaşa.
Adil kimsələrlə addımla qoşa,
Alnını səcdədən ayırma, oğlum!

Vicdanı dəyişmə dövlətə-mala,
Şərəf namusuna gətirmə qara,
Əgər yoxsulluqdan gəlsən də zara,
Əlini harama uzatma, oğlum!

Məzluma arxa ol, dərdliyə çara,
Başın üstə olsun şanlı aypara.
Vətənini satma yağı-yadlara,
Şəhadət şərbətin içib öl, oğlum!



## PƏRVANƏ

Bir pərvanə gördüm çırpınıb, duran.
Şəmi yoxdu deyə yaman karıxıb.
Axı ona şəmdi qanad çırpdıran,
O şəm sevdasına şəmsiz yoluxub.

Görəsən pərvanə şəm bilər məni?
Yoxsa tək alışıb, tək də yanaram?
Ona gəmi olsam açar yelkəni?
Yoxsa ki dənizdə batıb, qalaram?

Mən o pərvanənin oduna yanım,
Bilim ki şəm nədi, ərimək nədi?
Bəlkə yana-yana sevgini qanım,
Bəlkə də sevdiyim tək pərvanədi.





## QIL

Ey gül, dəxi qəmxanəmi şad qıl.
Viranəyə dönmüş ürəyi gəl də, abad qıl.

Gəl, züfünü tök bir də üz üstə gözə xatir,
Gözlərdən axan qanlı yaşı sil də savab qıl.

Ləblərdən axan baldı, süzülmüş sinəm üstə,
Gəl ləblərini ləblərimə mərrə qonaq qıl.

Kipriklərin almış canım, ey qaşları mahnur!
Qaşı yay, kipriyi ox, köksüm hədəf qıl.

Salmış canıma atəşi hicran qara xalın,
Bir busən ilə dəydir onu ağzıma, dad qıl.

Söndür odunu atəşi-eşqin gəl, ey afət!
Leysan ol, üstümə yağ, tüstümü yox qıl.



## SEVDİM SƏNİ

Sevdim səni...
Anlatmağa gücü yoxdur qələmin də,
Sözlər matdım-matdım baxır,
Bu da olmaz deyinərək xətlədiyim cümlələrdə
İtib-batır bir ağ vərəq...
Yenə mızıldanır ürək
"Sevdim səni" söyləyərək...







## BİR GÜN

Bir gün anlayanda nə etdiyini,
Bəlkə bu həyatda olmayacam mən.
Sonra peşman olsan nə dəyişər ki?
Bu fani dünyada qalmayacam mən.

Yadına düşəcək mənli günlərin,
Qanlı yaş tökəcək kövrək ürəyin,
Gözlərin gəzəcək hər yerdə məni,
Solacaq hər arzun, hər bir diləyin.

Gözəl gözlərindən yaş süzüləcək,
Qəm-kədər qəlbində səf düzüləcək,
Hər kəsə yalandan gülsə də üzün,
Bir vaxt sevdiyim qız çox üzüləcək.

İçində qopsa da tufanlar sənin,
Olmayacaq kimsə daha həmdəmin.
Uzun saçlarını kəsəcəksən sən,
Kimsə bilməyəcək nədir bu qəmin?

Mənli xatirələr boğacaq səni,
Mənsiz eşq gəmisi açmaz yelkəni.
Nə qədər istəsən, cəhd etsən, dansan,
Unuda bilməzsən heç zaman məni.



## SEVMƏ

Sev məni sevgilim, mələklər kimi,
Ən təmiz arzular, diləklər kimi,
Arısına həsrət çiçəklər kimi,
Ocağında yanan köz kimi sevmə.

Sev məni dənizlər, ümmanlar kimi,
Yaşıla bürünmüş ormanlar kimi,
Pişvazda dayanan qılmanlar kimi,
Damarına həsrət qan kimi sevmə.

Sev məni naxışlar, oyalar kimi,
Gözəllik yaradan boyalar kimi,
Əl çatıb, ün yetməz qayalar kimi,
Amandı sən məni mən kimi sevmə!



## ?

Dəniz olsam,
Coşub-daşsam,
Tutsam səni ağuşumda,
Razısanmı boğulmağa
Dalğalarım arasında?

Külək olsam,
Əsib-coşsam,
Dalğalansam saçlarında,
Razısanmı sovrulmağa
Fırtınamın sonrasında?

Günəş olsam,
Səni yaxsam,
Qan-tər olsam yanağında,
Razısanmı qovrulmağa
Hərarətim yanğısında?

Ürəy olsam,
Qanla dolsam,
Titrəsəm sol bucağında,
Razısanmı döyünməyə,
Nəfəsimin sonrasında?



## NECƏSƏN?

Necəsən gül üzlü, nazlı nigarım?
Mənsiz oralarda necədi halın?
Gözlərin gəzirmi hələ də məni?
Sənsiz məhv olubdu könül diyarım.

Mənsiz sabahları necə açırsan?
Yenə pəncərədən bir cüt ala göz
Boylanırmı görsün orada məni?
Yoxsə əvvəlki tək baxıb, qaçırsan?

İslanırsan yenə yağan yağışda?
Yenə buz kəsirmi ipək əllərin?
Soyuqdan qızarır o al yanaqlar?
İsidə bilmirəm səni, bağışla.

Niyə aramıza düşdü ayrılıq?
Mən səndə ruh idim, sən məndə bədən.
Sən görən gözümdün, mən göz bəbəyin,
Axı biz nə üçün qovuşammırıq?

Sənin həsrətindən çiçək açmışam,
Qopara bilmirəm, sən qoxur deyə.
Sənsiz sanki yoxam qoca dünyada,
Mən öz varlığımı səndə tapmışam.

Necəsən, bilmirəm indi sevgilim...
Sənsiz alışıram, sənsiz yanıram.
Evsiz-eşiksiz bir divanəyəm mən,
Sənin ürəyindi mənim mənzilim.





## SƏNİ SEVİRƏM

Uzaqdan baxmağım bilsən nə acı...
Əlinə baxıram, tuta bilmirəm.
Qorxuram əlini çəkərsən məndən,
Baxışın necə də gözəl, qıyğacı...

Sənsizlik oduna alışıbdı can,
Tüstüsü görünmür, odu görünmür.
İçimdə qocaman ataş olmusan,
Sevda dənizində sən gizli mərcan.

Ömrümə sevincsən, yoxsa ki kədər?
Bir gözüm sevinir, biri yaş tökür.
Bir gün vüsalınla qanadlanıram,
Bir gün həsrət düşür mənə bəs qədər.

Mən səni sevirəm dəlilər kimi,
Anlada bilmirəm amma heç cürə...
Hər sözüm, hər kəlməm acizdən-aciz,
Necə vəsf eyləyim məhəbbətimi?

Deyim qanla dolan ürəksən mənə?
Ürəkdə ürəkdən əsər qalmayıb...
Dönüb sənlə dolub-daşan nəsnəyə,
Nə deyim, deyim ki gərəksən mənə?

Yoxsa ki söyləyim nəfəs kimisən?
Səni almayanda həyat dayanır.
Bir damla su kimi möhtacam sənə,
Sən mənim köksümdə üzən gəmisən.

# SƏSSİZ OL!

Səssiz ol, oyatma xatırələri.
Şirin yuxusunda qalıb yaşasın.
Səssiz ol, qanatma xatirələri,
Təzə qaysaq tutub, yarası dərin.

Səssiz ol, damarda axan qan kimi.
Səssizcə qışqırmaq bilsən nə acı.
Budağından qopan bir yarpaq kimi,
Səssizcə hıçqırar ruhu mazimin.





# MƏNİ XATIRLAMA (XATIRLA)

Məni xatırlama qara gecələr,
Xatırla işıqlı sabahlarında.
Bütün savabların qoy sənin olsun,
Sən məni xatırla günahlarında...

Xatırla, yağışa necə dalardıq,
İpək saçlarından su süzülərdi,
Yağış qoxuyardı hər bir zərrəmiz,
Kimsə bizi görsə bəlkə gülərdi...

Məni xatırlama şaxtalı qışda,
Yoxsa ruhun donar xatirələrdə,
Göz yaşın buz tutar yanaqlarında,
Hər yer xatirədir bax bu şəhərdə.

Sən məni xatırla, bahar gələndə,
Çiçəklər açanda bağçalar-bağlar,
Hər tərəf al-əlvan rəngə bürünər,
Yadıma düşəndə o sənli çağlar.

Xatırlama məni, payız düşəndə,
Xəzan yarpağı tək səpələnməyək,
Külək sovurmasın belədən belə,
Daha olan olub, qəhərlənməyək.



## UNUTDUM (?)

Unutdum mən səni, heç olmamış tək...
Nə bir xatirən var, nə də ki izin.
Rəsimlərini də silmişəm bir-bir,
Yıpratmasın məni, verməyəm izin.

Hər kəsə demişəm unutdum səni,
Daha düşməyirsən yadıma mənim.
Başladı və bitdi sinema kimi,
Sevgin kəsilmişdi ömrümə qənim.

Qəbahətdi zatən səni sevməyim,
Sehrinə düşmüşdüm bəlkə bir anlıq.
Görə bilməyirdim burnumun ucun,
Hər tərəf olmuşdu sanki qaranlıq...

Əslində, unutdum deyirəm səni.
Amma öz-özümə qara yaxıram.
Sənsiz bütün dünya boş gəlir mənə,
Mən özüm-özümdən heyif çıxıram.







## UNUTMAQ

Nə zaman unutmaq istəsəm səni,
Özümü unudub, səni tapıram.
Hər kəsə deyirəm unutdum səni,
Bu yalan içində itib-batıram.

Unutmaq sözünü işlətmək asan...
Hünərin var onu ürəyə söylə!
Dilin nə vecinə, söyləyib keçir,
Əzəldən dil qəlbi incidib böylə.

Əslinə qalanda unutqanam mən,
Bəzən açarları, telefonumu,
Bəzən pul qabını, getdiyim yeri...
Amma səni heç cür unutmaq olmur,
Düşünə bilmirəm bunun sonunu.

Deyirəm, unudum yuxularımda,
Orda da şakitlik vermirsən mənə.
Gecələr yatıram acılarımla,
Dağ çəkir sənsizlik hər gün köksümə.

Bəlkə son nəfəsdə unudam səni,
Onda bu həyat da bitmiş olacaq.
Bu fani dünyaya edib əlvida,
Ruhum o dünyada hüzur bulacaq.



## VUR MƏNİ!

Vur məni...
İstəsən məhəbbətinlə,
Nazına bulaşmış gül həsrətinlə,
Ürəyimi yaxan hərarətinlə,
Vur məni sinəmdən, ürək tərəfdən...

Vur məni...
Süzülən baxışlarınla,
İncidib canımı alışlarınla,
Qəsdimə dayanma yarışlarınla,
Vur məni, sinəmdən, ürək tərəfdən...

Vur məni...
Təzə-tər təravətinlə,
Qayalardan möhkəm sədaqətinlə,
Məni sehirləyən lətafətinlə,
Vur məni sinəmdən, ürək tərəfdən...

Vur məni...
Çatılan kaman qaşınla,
Gözündən süzülən damla yaşınla,
Ən sonda boynuma sarılışınla,
Vur məni, sinəmdən, ürək tərəfdən...



## VƏTƏN

Vətən mənim namusum,
Ən şərəfli sözümdü.
Vətən mənim kimliyim,
Vətən elə özümdü.

Vətən alın yazısı,
Nəsillərə izimdi.
Vətən ana laylası,
Bu layla çox həzindi.

Vətən ülvi məhəbbət,
Vətən mənim gözümdü.
Bir ömürlük səadət,
O mənim ağ üzümdü!



# YATMAQ İSTƏYİRƏM

Yatmaq istəyirəm, yuxuda görüm,
Daha sənsizliyi daşımıram mən.
Ağır bir yük olub, üstümə çöküb,
Dözmür çiyinlərim, hər gün çökürəm.

Yatmaq istəyirəm, itsin xatirən...
Bəlkə də, insafa gəlib bu dəfə,
Yuxuma gəlməzsən gülüşlərinlə,
Qoymazsan köksümü yenə hədəfə.

Yatmaq istəyirəm, unudum səni,
Heç olmazsa orda bir neçə saat.
Yuxumda görüm ki, hələ uşağam,
Qayğısız, şən, dəcəl, az da fərağat.

Yatmaq istəyirəm, bitsin bu zülüm...
Dinsin bu işkəncə, bu acı kədər,
Buraxsın yaxamı cani iztirab,
Yaddaşımdan itsin o qara gözlər.

Yatmaq istəyirəm, ölülər kimi...
Bir də ayılmayım bu dünyaya mən.
Tərk etsin qoy fani cismimi ruhum,
Bəlkə son nəfəslə sən də bitəsən.







# YAĞ, EY YAĞIŞ!

Yağ, ey yağış!
Leysan yağ ki,
Ürəyimin yanğısını bəlkə azca soyudasan...
Yoxsa yanıb, kül olacam,
Sovrulacam...

Külək alıb aparacaq,
Budağından qoparacaq,
Bir çuxura basdıracaq...
Yağ, ey yağış!

Yağ, yağışım...
İslat məni.
Qoy süzülsün ürəyimə hər bir damlan.
Yoxsa burda boğar məni,
Ürəyimin yanğısından qalxan duman.



## YENƏ

Yenə baxışların lal kimi baxır,
Baxanda qəlbimi odlara yaxır,
Köksümə gözündən ildırım çaxır,
Bu nə səssizlikdi axı, əzizim...

Yenə vüsalını həsrət bürüyüb,
Bu dəli sevdadan ürək çürüyüb,
Kiçik bir qığılcım necə böyüyüb,
Bu nə məhəbbətdi axı, əzizim...

Yenə pərvanəni yaxırsan oda,
Dünya mənə sənsiz tənha bir ada,
Ruhum bədənimə eyləyir vida,
Bu nə cəsarətdi axı, əzizim...



## YOLUM SƏNSƏN

İllər ötsə, saçlara düşsə də dən,
Heç nə dəyişməyib sənə sevgimdən.
Sənə gələn yollarımı buz kəsib,
Yolum sənsən, mən keçmişəm özümdən.

Yoxluğuna bürünmüşəm burada,
Balışım da sənli xatirlərdi.
Gözlərimi zilləmişəm tavana,
Surətini görürəm, çox gözəldi.

Üstümə qar yağır ağappaq, bəyaz,
Üşüyürəm, titrəyirəm sazaqdan,
Canım yanır ayrılığın oduna,
Möhnətini çəkirəm mən uzaqdan.

Ruhum səndə, cismim səndən iraqda,
Nə çəkirəm Allah bilir, bir də mən.
Həsrətindən ev tikmişəm özümə,
Sənsizliyi necə qoxur bir bilsən...

Yolun düşsə, sən gəl mənim yanıma,
Acıları, kədərləri bitirək.
Yalnız bir adada daxmamız olsun,
Bizdən başqa hər bir şeyi itirək.



# ÖZLƏM

Sənin əllərinin hərarətini
Qışda soba kimi hiss eləyirdim.
Üzümə tökülən qara telini
Körpə uşaq kimi əzizləyirdim.

Bilmirdim ki, sevdan quru yalanmış.
Məni ovsunlayıb, saldın toruna.
Saxta gülüşlərin, saxta göz yaşın,
Çat düşüb sevgimin tənha goruna.

Elə darıxmışam, bir bilsən ki sən...
Ruhuma dar gəlir bu boyda bədən,
Düşünə bilməzsən, bilə bilməzsən,
Qalanı nə qədər incidir gedən.

Kimsə anlamaz ki, halımdan mənim,
Ac qurd tək gəmirir içim-içimi,
Çölüm gül-çiçəkdi, içimdə boran,
Kimsə duya bilmir ürək səsimi.

İndi uzaqlardan uzaqsan mənə,
Səsin daha yaddı, baxışın ögey,
Xatirələr susub, daha dinməyir,
Eyləyir hər gecə səssizcə giley...

Daha göz yaşım da axır içimə,
Üzümə saxta bir təbəssüm qonub.
Bircə gözlərimə baxmasın kimsə,
Orda gözlərinin surəti donub.






# ELƏ BİLMƏ

Elə bilmə, sevəcəyəm
Səndən sonra başqasını...
Ümidimi üzəcəyəm bu həyatdan,
Üzəcəyəm, iti qılınc bir kəndiri kəsdiyi tək.
Etsə də ruhumu bu qəm tikə-tikə, dilim-dilim,
Möhnətinə dözəcəyəm.

Sönəcəyəm ulduz kimi,
Gecə-gündüz qovuşanda.
Gözlərin məni gəzəndə,
Göylərdən baxacam sənə.
Məni axtar gecələrdə,
Mən gündüzlər itəcəyəm...

Elə bilmə dönəcəyəm,
Gedən durna qatarı tək.
Gedəcəyəm hey uzanıb,
Gedəcəyəm yollar kimi.
Arxamca həsrətlə baxma,
Yol sonunda öləcəyəm.



# İLİŞMİŞƏM

Xatirələrdə ilişmişəm, əzizim.
Çox fəna ilişmişəm.
İlişdikcə, addım-addım,
Bir bax, sənə dönüşmüşəm.

Gözlərində ilişmişəm, əzizim.
Elə ilişmişəm,
Hara baxsam, hara dönsəm,
Təkcə səni görürmüşəm...

Saçlarında ilişmişəm, əzizim...
Hörüklərinə ilişmişəm.
Dənə dönüb saçlarında,
İllərini bölüşmüşəm...



# İLK SEVGİ

Sənə olan sevgim içimi didir,
Nə deyə bilmirəm səni sevirəm,
Nə də ki, sakitcə dayanmaq olmur.
Qorxuram sevgimə yanaşmayasan,
Sənsiz ciyərimə nəfəs də dolmur.

Axı mən nə edim, ürək çağlayır,
Nə vaxtdı gizlicə eşq yaşayıram.
Dinmək istəyirəm, dinə bilmirəm,
Həsrətin hər gecə məni dağlayır.

Hər dəfə deyirəm könlümü açım,
Səni görər-görməz nitqim quruyur.
Sehrinə düşürəm gözəlliyinin,
Səni məndən sanki kimsə qoruyur.

Elə baxırsan ki, məni görəndə,
Ürəyim az qalır yerindən çıxa.
Yəqin hiss edirsən sevildiyini,
Mənsə gah vururam nala, gah mıxa.

İlk sevgi nə qədər həyəcanlıdı,
Bilmirsən göydəsən, yoxsa ki, yerdə...
Bilirəm ki, sən də sevirsən məni,
Qoxunu duyuram sanki şeirdə.



# YAĞIŞ ÜRƏKLİ SEVDİYİM

Yağış ürəkli sevdiyim...
Yağ ömrümə narın-narın,
Yusun yağan damlaların,
Nisgilini qoy bu yarın.

Yağış ürəkli sevdiyim...
Bilirsənmi, sənsiz nəfəs nəfəs deyil.
Mənim sənə məhəbbətim
Quruca bir həvəs deyil.

Yağış ürəkli sevdiyim...
Sənə həsrət, sənə möhtac,
Bu zavallı, qəmli könül
Özləm duyar bir baxışa qulac-qulac.

Yağış ürəkli sevdiyim...
Səni görcək oluram lal,
Baxmağa da utanıram gözlərinə,
Anlamıram mən, bu nə hal.

Yağış ürəkli sevdiyim...
Səni sevirəm sözünü
Söyləməyə utanıram
Biləsən sən lap düzünü.

Yağış ürəkli sevdiyim...
Şeirlərə səpələnib məhəbbətim,
Bəlkə də, gülürsən mənə,
Sənə bunu söyləməyə yoxdur mənim cəsarətim.




Yağış ürəkli sevdiyim...
Mən aşiqəm səndə olan mərhəmətə,
Saflığına, düzlüyünə,
Qayadan sərt sədaqətə.

Yağış ürəkli sevdiyim...
Sən mənimsən, təkcə mənim,
Həsrətin də, kədərin də, özləmin də...
Mən də olum təkcə sənin.





## SARIL MƏNƏ!

Sarıl mənə, qucaqla bərk,
Bu həsrətin sonu bitsin.
Qoxunu çəkim içimə,
Qoy ayrılıq daha itsin.

Bəsdi daha ayrılığın acısını çəkdiyimiz,
Məhəbbətin əvəzinə iztirabın toxumunu əkdiyimiz.
Bu həsrəti çəkə-çəkə bitdi bizim gəncliyimiz,
Daha bəsdi, sarıl mənə.

Elə sarıl, iki ürək bir döyünsün,
Dostlar baxıb sevgimizə qoy öyünsün,
Gözlərində eşqin şöləsi görünsün,
Bərk qucaqla, biraz da bərk.

Sarıl mənə, elə möhkəm...
Qoy əzilsin aramızda qüssə, kədər, acılı qəm.
Bir an sonra ölüm gəlir, əgər bilsəm,
Tək istəyim, sarıl mənə...



## GETDİ

Getdi daha o son qatar,
Xatirələr üzərində.
Nə göz görməz, nə ün duymaz,
Vaqonda nakam eşq yatar.

Getdi sənlə təbəssümüm,
Səndən başqa nəyim vardı?
Bir sən vardın, bir quru can,
Öpüşür zülmətlə günüm.

Getdi bahar, gəldi payız,
Soldu eşqin çiçəkləri.
Vüsal daha gen durubdu,
İndi hər kəs biraz yalnız.

Getdi sənlə varım-yoxum,
Hər şey biraz yox kimidi.
Özümü də yox sayıram,
Sən azımdın, həm də çoxum.

Getdi daha nələr-nələr,
Saysam bitməz, ömrüm bitər.
Nakam eşqin sivri oxu
Hər gün biraz daha dələr.



## GEDƏCƏM

Bəlkə bir gün səssiz ölüb gedəcəm,
Kədəri, nisgili silib, gedəcəm,
Kimsə bilməyəcək hara itdi bu,
Son nəfəs payımı alıb, bitəcəm.

Gedəcəm içimdə acı bir həsrət,
Nə sən biləcəksən, nə də özgələr.
Ömrümə qonaq tək gələn məhəbbət,
Əcələ dönüşüb, üstümə gələr...

Hopub göy suların ləpələrinə,
Gedəcəm tufanlar qopan yerlərə,
Dənizə çevrilib, dalğaya dönüb
Daşacam kimsəsiz, susuz çöllərə.









## MƏN O ADAMAM

Mən həmin adamam,
Mən o adamam...
Sənsizlik içimi içimdən yeyir,
Həsrətin bağrımın başını deşib,
Qanı acı-acı axan adamam,
Özümü odlara yaxan adamam...

Mən həmin adamam,
Mən o adamam...
Gündüzüm gecədi, gecəmsə zülmət,
Sənsiz gözlərimin nuru itibdi,
Kor kimi qaranlıq görən adamam,
Yanıb, külə dönüb, sönən adamam...

Mən həmin adamam,
Mən o adamam...
Çılğın dəniz kimi coşub-daşaram,
Dəyib eşqimizin sahillərinə,
Mavi gözlərində ölən adamam,
Gözündə damlaya dönən adamam...

Mən həmin adamam,
Mən o adamam...

# YOXSAN DAHA BU ŞƏHƏRDƏ

Yoxsan daha bu şəhərdə,
Boğazlayıb məni kədər.
Dilim-dilim doğranıram,
Bölünmüşəm neçə yerə,
Cayır-cayır odlanıram.

Tüstüyə dönüb qalxıram,
Buludlardan görəm səni,
Görəm hansı şəhərdəsən,
Deyəsən gözlərin dolub,
Sən də mən tək qəhərdəsən.

Bu şəhərdə sanki təkəm,
Gördüklərim sanki yuxu...
Sənsizliyi alqılamır bu asi ruh,
Ah, bu yuxu bitməz neyçün?
Nədən sarıb dörd bir yanı qaragüruh?

Hər şey dönübdü tərsinə,
Qışda bahar havası var.
Yayda sızıldadan soyuq,
Ürəyimin tam ortası,
Sənsiz qocaman bir oyuq.

İndi burda xatirələr,
Ağlayır hey için-için...
Hıçqırığa boğulubdu,
Selə dönüb göz yaşları,
Yanaqlarda yox olubdu.




# YENƏ GECƏ

Yenə gecə, bomboz otaq, yenə mən...
İki qədəh yalnızlığın şərabı.
Sağlıq deyir mənə gecə, səssizcə,
Qəm-kədərlə dolub-daşır külqabı.

Hər siqaret kötüyündə gizlənib neçə illər,
Məzə boşqabında nisgil dilimi.
Xatirələr siqaretin tüstüsüylə rəqs edir,
Neçə kərə dalıb-dalıb yandırmışam əlimi...

Bircə susmur gecəquşu bayaqdan,
Söz açır gecəyə məhəbbətindən.
Gecə susur, zülmətinə bürünüb,
Onun dərdi böyükdü zülmətindən...



# ELƏ OLAR

Elə olar, adam küsər özündən,
Ruhu donar, dünya düşər gözündən.
Nadan kəsin birсə kəlmə sözündən,
İçi yanar, tüstüsünü görməzsən.

Elə olar, bahar ömrə qış düşər,
Qar yerinə göydən sanki daş düşər,
İztirablar bir-biriylə ötüşər,
Bircə mərrə soluqlana bilməzsən.

Elə olar, saniyələr dirənər,
Xatirələr bıçaq kimi bilənlər,
Can bədəndə uşaq kimi bələnər,
Hər gün ölüm arzulayıb, ölməzsən...







# MƏNİ DANMIŞAM

Sənin ocağına qor olmuşam mən,
Qədəmini görcək yol olmuşam mən,
Dəli külək olub, sovrulmuşam mən,
Sənin həsrətinlə nişanlanmışam,
Sənə çevrilmişəm, məni danmışam.

Mən ağ vərəq idim, sən qara qələm,
Yazdın ürəyimə iztirab, ələm,
Çətin ki bir daha özümə gələm,
Sol tərəf köksümdən yaralanmışam,
Sənə çevrilmişəm, məni danmışam.

Sənin gözlərinin dəlisiyəm mən,
Bu saf məhəbbətin gur səsiyəm mən,
Uğrunda lap elə öləsiyəm mən,
Sənli xəyallara mən çox dalmışam,
Sənə çevrilmişəm, məni danmışam.

Mən payız axşamı əsən küləyəm,
Əl çatmaz arzuyam, bitən diləyəm,
Taxtası çürümüş köhnə ələyəm,
Səni insan deyil, huri sanmışam,
Sənə çevrilmişəm, məni danmışam.

## ƏHSƏN

Daha yollarımız qovuşmayacaq,
Ürək öz köksünə yovuşmayacaq,
Bir də eşq atəşi tutuşmayacaq,
Sevgi bayrağını endirəcəksən,
Soldu eşqin bağı, bacardın, əhsən!

Sənin məhəbbətin quru yalanmış,
Sevgi sədaqətin sadəcə anmış,
Köksündə sevdanın beşiyi yanmış,
Bir ömür özünlə sən öyünərsən,
Soldu eşqin bağı, bacardın, əhsən!

Sanırdım səninlə bitdi iztirab,
Bilməzdim ki, sevgin səhrada sərab,
Məst etmişdi məni eşq adlı şərab,
Demək ki, ötəri əsən küləksən,
Soldu eşqin bağı, bacardın, əhsən!

Sevəcəm günəşi, sevəcəm ayı,
Sakit səsi ilə axan bir çayı,
Mənim sevgim deyil ucuz, havayı,
Sənsə öz-özünə düşkün bir kəssən,
Soldu eşqin bağı, bacardın, əhsən!



## BU DÜNYA

Özünə aşiq olan uduzar bu dünyada,
Bir anlasa insan kaş, damla deyil dəryada.
Təkəbbürlü lovğalar adamın üz qarası,
Şirin canı incisə keçəcək tez fəryada.

İnsanı uca etməz var-dövləti, geyimi,
İçinə həbs olduğu o daş divar saraylar.
Kimsəyə qalmaz inan, bu dünya cah-cəlalı,
Qəbr evi çox yaxındır, hər gün səni haraylar.

Nəyin var ki, ay insan, bu dünyadan köçəndə,
İki metrlik kəfən, bir də torpaqdan məzar.
Hərə biraz ağlayıb, dağılacaq evinə,
Yuxu idimi həyat, yaxşı onu kim yozar?

Yox, yox... yuxu deyildi, yaşayırdın sən dünən,
Hələ uzun illərin xəyalını qururdun.
Sabah daha kimlərin haqqını necə yeyim...
Qara-qara düşünüb, boş başını yorurdun.

Can boğaza gələndə anladın ki puç imiş,
Uğruna həyatını tükətdiyin sərvətin.
Amma indi gecdir, gec, geriyə yoxdur yolun,
Əlində azuqə tək qalıb ancaq möhnətin.

Bir kərə bir yetimin oxşamadın başını
Düşəni qaldırmadın, paylaşmadın aşını
İndi nədir bu fəryad, nədir bu peşmançılıq
Axı sən tullamışdın adamlığın daşını...

Yaranan bir gün köçər bu qocaman dünyadan,
Bu dünya bir imtahan, bəlkə sınaq şüşəsi...
O şüşənin içində birlikdirib, yığdığın,
Haqq dünyasında sənin taleyinin guşəsi.

# SEVMƏ MƏNİ!

Sevmə məni, sevmə adam!
Məni sevmək ölüm kimi,
Öz-özünə zülüm kimi,
Yoxdu bu dərdin həkimi,
Acı biraz taleyinə, sevmə məni...

Sevmə məni, sevmə adam!
Məni sevsən ruhun donar ilk baharda,
Xoşbəxtliyin qalar ancaq arzularda,
Sərnişinəm hara getdiyi bilinməz bir qatarda,
Biraz dayan, biraz düşün, sevmə məni...

Sevmə məni, sevmə adam!
Sən ki həyat aşiqisən,
Gözəlliklər layiqisən,
Bilirəm, eşq sadiqisən,
Yorularsan, sevmə məni...

Sevmə məni, sevmə adam!
Məni sevmək bir ocaqda cayır-cayır yana bilmək,
Bir məhəbbət nağılına gözübağlı qana bilmək,
Bu uğurda özünü də dana bilmək,
Görürsənmi necə zordu, sevmə məni...








# QƏBRİMƏ GƏLƏN QADIN

Qəbrimə gələn qadın,
Nədən göz yaşın seldi?
Bu qədərmi sevmişdin?
Neyçün qalxıb fəryadın?

Qəbrimə gələn qadın,
Ölümümü gözlədin
Peşmançılıq duymağa?
Kiri daha, başlama
Saçlarını yolmağa...

Qəbrimə gələn qadın,
Göz yaşların istidi,
Kəfənimə süzülür...
Axı niyə gəlmisən?
Qəlbin çoxmu üzülür?

Qəbrimə gələn qadın,
Hardan duydun ölmüşəm?
Kim dedi sənə axı,
Ulduz kimi sönmüşəm...

Qəbrimə gələn qadın,
Görüşmürdük biz axı,
Sən ki məndən uzaqdın,
Ayırmışdıq yolları,
Axı məndən iraqdın...

Qəbrimə gələn qadın,
Gəl daha sağollaşaq.
Göz yaşına qıymıram,
Daha çıx get evinə...
Mən ki səndən doymuram...



# YAXŞI YOL

Gedirsən, yaxşı yol, geriyə baxma,
O son baxışların zəhərli oxdu.
Bil ki, o gedişin dönüşü yasaq,
Daha bu ürəkdə sənə yer yoxdu.

Gedəndən qapının cəftəsi qopub,
Bu sirli otağa yalnızlıq hopub.
Sonda peşman olub, bəhanə tapıb,
Dönməyi istəmən səninçün çoxdu.

Könlümə əbədi çəkilmiş dağsan,.
Quruyub saralmış, meyvəsiz bağsan,
Daha bulud olub, üstümə yağsan,
İslatmaz köksümü, ürəyim toxdu...




# EY KÖNÜL

Ey könül, vəsf elə, gəl cani-könüldən Xudanı!
O ki, xəlq etmişdir, "Ol!" deməsiynən cahanı.
Şükrünü əsla az etmə, yoxsa dil xəstələnər,
Dünya bir imtahan imiş, burda qullar ələnər.

Nəfsinə olma əsir, eyləmə dünyaya həvəs,
İstər ol şah, ya gəda, payidar olmaz nakəs,
Səcdə qıl, göz yaşı tök, nəfsini əz.
Yoxsa qəlbin kor olar, hakim olar köksə mərəz.



# AĞLA TƏNHA QADIN!

Hardasa bir tənha qadın ağlayır...
Göz yaşı qurumaz, acısı dinməz.
Nədir onu belə kədərə boğan?
Kimsəyə söyləməz, heç kimsə bilməz.

Süzülür damlalar göz bulağından,
Səssizcə damlayır köksünün üstə.
İçində təlatüm, içində tufan,
Çölündə göz yaşı yağır ahəstə.

Bir qadın ağlayır, gözləri ümman...
İlahi, gözlərdə nələr var, nələr...
Lal kimi səssizdir ağlayan qadın,
Aldığı hər nəfəs onunçün zəhər.

Ağaran saçında sığal yeri var,
Gözündə, qaşında, dodaqlarında...
İztirab damlayır sanki gözündən,
Buz kəsib göz yaşı yanaqlarında.

Ağla tənha qadın, ağla doyunca!
Bəlkə bu damlalar yaşadır səni.
Nəmli xatirələr köksünü didir,
Axıt göz yaşınla olub-keçəni...





# SEVDA DEDİYİN

O qədər gözlədim ki,
Səbrim daş bağladı.
Gözlərimi yaş bağladı,
Sevgisi ürəyimi hər gün-hər gecə
Elə hey dağladı...
Amma o görmədi.
Görəmi bilmədi,
Görməkmi istəmədi...?
Bilmirəm...
Tək bildiyim,
Əhdinə sadiq qalmadı.
Sevda dənizinə ayağını saldı,
Amma dalmadı.
Ürəyimi yetmədi,
Sevgisimi yetmədi...?
Birlikdə əkdiyimiz sevgi adlı fidan
Saralıb-soldu, bitmədi...
Və budur...
Bir qələm, bir də vərəq,
Qələmimdən tökülən cümlələr,
İztirablı xatirələrlə doludur...
Əslində elə sevda dediyin,
Girişində "çıxmaz" deyə yazılı,
Səninsə buna rəğmən israrla girdiyin
Acıların yoludur...



## BİLƏ BİLMƏDİM

Öncə gur işıqdın, anidən söndün,
Məsum birisiydin, cəllada döndün,
Sən mənə yol idin, sən mən yöndün,
Nə ara dəyişdin, bilə bilmədim.

Daha yollarımız ayrıdı,yaddı,
Sən öz yolundasan, mən öz yolumda.
Gəzib-dolaşıram özümü alıb,
Sanki daş parçası vurur solumda.

Damarımda axan qan da donubdu,
Axı daş ürəyə qan nəyə lazım?
Şeir dəftərimin yarısı qara
Kimə lazım axı mənim bu yazım?

Bəlkə bir ocaqda yaxmağım gərək
Sənli xatirələr olan hər şeyi.
Duyğular düyünlü ilməyə dönüb,
Asıbdı ruhumu, budur taleyi...



## DARIXMAĞIN QOXUSU

Darıxmağın qoxusunu bilirsən?
Heç bir şeyə oxşamır ki, yaramaz.
Üzür ürəyini, bükür belini,
Açdığı yaranı kimsə sarımaz.

Elə darıxarsan, ürəyin əsər,
İti bıçaq olar, köksünü kəsər,
Qalmaz sənə səndən nə iz, nə də ki əsər,
Bəlkə də öz ruhun səni tanımaz.

Dolar ciyərinə, hopar nəfəsə,
Varlığın dönüşər sanki qəfəsə,
Anlada bilməzsən bunu heç kəsə,
Böylə bir iztirab olmaz, olamaz.

Duyğular qarışıb, dönər düyünə,
Çözə də bilməzsən, adam öyünə,
Sanki axan qan da çatmaz beyinə,
Nə kədər qocalmaz, nə dərd qarımaz...

# EŞQ ADLI ŞƏRAB

İsitdim içimə çökən sazağı,
İsidə-isidə özümü yaxdım.
Sən görə bilmədin, bilə bilmədin,
Mən bir şimşək olub, özümə çaxdım.

Sən gedən o gündən səssiz-səmirsiz,
Daha bağlamışam könül qapısın.
Açılmaz bir daha kimə-kimsəyə,
Sökmüşəm ürəkdən onun yapısın.

Ruhum alovlanıb, ürək buz tutub,
Axı bu nə sirdi, bu nə sehirdi?
Necə tutqudu bu canımı alır,
Çarəsiz eşqmidi, yoxsa mehrdi?

Aldığım nəfəs də nəfəs deyil ki...
Ciyərimə dolan sanki iztirab.
Köksümə saplanıb sivri ox kimi,
Yaramdan püskürür eşq adlı şərab...








# MƏNƏ BİRAZ ŞEİR DANIŞ

Mənə biraz şeir danış,
Hər sətirdə od tut, alış,
Ulduz olub, məndə sayrış,
Qarış mənim taleyimə, qara gözlüm.
Bu sevgidə mənlə yarış.

Yalnız otaq, tək həmdəmim bir cüt balış,
Gözlərimə yuxu gəlməz dan olmamış,
Anlaşılan, mənə aid, bu tendə zərrə qalmamış,
Qoxun hopan bu otaqda, pıçıltıyla,
Mənə biraz şeir danış.



## BAXMA DA...

Bu axşamın içində
Ayrılıq var, həsrət var.
Qaldıra bilmədiyim
Bir də ağır möhnət var.

Sol yanım çox acıyır,
Sən gedən gündən bəri.
Diri gözlü açıram,
Mən hər gecə səhəri.

Solub pəncərəmizdə,
Əkdiyimiz çiçəklər.
Daha qoxunu vermir,
Al qırmızı ləçəklər.

Yanmır işıqlar daha,
Bu üşüyən daxmada.
Qapısı bağlı deyil,
Birdən gəldin, baxma da...



## EY GÜL!

Görcək üzünü didələrim nura bələndi,
Hislər qarışıb bir-birinə sanki ələndi.
Sonra o zərrələrim də səpələndi,
Sən gələn yollara, ey gül, səni görcək.

Solmuş bənizim, sap-sarı olmuş neçə vaxtdı,
Sənsizlik odu cismimi hər gün elə yaxdı...
Gündüzləri heç söyləmirəm mən, gecə vaxtı
Tüstüm ucalır göylərə sənsiz dəxi, ey gül.

Gül söyləyirəm, zülfünə hərgah mən, ey afət!
Gülzarlar içrə yox tayın, ey huriyi surət.
Bir gün bitəcək olsa əgər bil ki, bu həsrət,
Ol gün doğacaq ömrümə sevdalı gün, ey gül!



# SALAMAT QAL

Payızın saralıb-solan yarpaqları arasında can verir ömrüm,
Könlüm əyninə kəfənini geyinib gözləyir.
Özləyir dəlicəsinə sevgilisinə qovuşmağı...
Sovuşmağı yoxdur bu xəzanın, gülüm.
Ölüm, mən ölüm qoy bir əzanın sədasıyla,
Ədasıyla alsın məni ağuşuna ana torpaq.
Yarpaq töksün üzərimə nazlı payız...
Ayrılmayız, bilirsənmi, əslində biz bir almanın yarısıyız,
Sarısıyız xəzan vurmuş bir yarpağın sarısıyız.
Darısıyız sünbüllərin, nazlı quzum,
Pozum olmaz bu yazıya, etmə sitəm, etmə xəyal...
Salamat qal!








# TÜRKİYƏ

Yandı bağrım, elə yandı, kül oldu,
Göz yaşlarım elə axdı, sel oldu,
Şəhidlərin qan qoxusu gül oldu,
Sən canımdan bir parçasan, Türkiyə!

Cismim burda, ruhum orda inləyir,
Əl açmışam, Tanrım məni dinləyir,
Damarımda axan qanım göynəyir,
Candan ötə cansan sən, ey Türkiyə!

Uca Allah əsirgəsin afəti,
İman nuru olsun Türkün zinəti,
Həm açıq-aşkarda, həm də xəlvəti,
Duamsan sən, ey vətənim Türkiyə...



# ALLAH

Saralıb bənizim, solubdu ruhum,
Yağmayan buludtək dolubdu ruhum,
Sənsən ülvi sevgim, Sənsən tək qorxum,
Sənə əl açmışam, tək Sənə, Allah!

Mənim qüsurlarım boyumu aşıb,
Həddim cığırından kənara daşıb,
Duyğular düyüntək elə dolaşıb...
Sən çöz düyünümü, ey Rəhim Allah!

Sərgərdan yolçuyam zaman içində,
Ruhum inildəyir fəğan içində,
Sən günah şəklində, asi biçimdə
Olan bu qulunu bağışla, Allah!

Axı səndən başqa yoxdur heç kəsim,
Döyüləcək qapım, gedəcək kəsim,
Hər iki dünyada bəsimdir, bəsim,
Bilsəm ki, sevirsən Sən məni, Allah!



# ÜŞÜYÜRSƏN

Üşüyürsən deyilmi?
Çatılan bir ocağın ətrafında
Qıp-qırmızı qızarmış oduncaqların közünə baxa-baxa
Üşüyürsən...

Göz yaşların yanağından damla-dama hey süzülür,
Narın qəlbin lap yəqin ki, çox üzülür,
Öz-özünə deyirsən ki:
Qara torpaq onu məndən çoxmu sevdi?
Onun uyduğu məzar bəlkə tək adamlıq evdi?
O da orda üşüyürmü?
Yoxsa onu isidirmi kiçik məzar?
Birdən yağan yağmurların damlaları ora sızar...
Düşünürsən...
Üşüyürsən...



Dünya dar gəlir deyilmi?
Sanki quştək qəfəsdəsən,
Tez-tez alıb-verdiyin bir nəfəsdəsən.
Hər nəfəsdə buz kəsilən ciyərlərə
Kədər dolar, qəm qarışar...
Fələk şaşar bu gərdişdən,
Qəhər boğar hər Allahın verdiyi gün.
Üşüyürsən...

Küskün-küskün, nəmli-nəmli,
Hey zillənər uzaqlara qara gözlər.
İstəyərsən danışasan,
Boğazında düyünlənər bütün sözlər.
Gəzdiyiniz küçələrdə tutmaz dizlər,
Bu şəhərdə az qala lap hər bir tində
Bir xatirən səni gözlər...
Arada bir saxta-saxta üzün gülər, ruhun gülməz
Kimsə duymaz, heç kəs bilməz.
Üşüyürsən...







# BİLMƏDİN

Sən bilmədin bu sevginin qədrini,
İndi bu qəlb məhəbbətdən uzaqdı,
Əsərinlə fəxr eyləyə bilərsən,
Ruh bədəndən küskün düşüb, iraqdı.

Hisslər donub, daş kəsilib duyğular,
Yoxdu daha şirin-şirin qayğılar,
Yalnızlığa qalıb təkcə sayğılar,
Sizdə yaydı, bizim burda sazaqdı.

Şəkillərdə qalıb ancaq gülüşlər,
Nəfəs kəsərdi bir zaman öpüşlər,
Gizlin-gizlin həyəcanlı görüşlər,
Daha bitmiş zaman, ötmüş bir çağdı.

Mən üzük idimsə, sən mənə qaşdın,
Gözümü var edən bir damla yaşdın,
Süzüldün gözümdən, yerə bulaşdın,
Bildim ki sevginin rəngi boyaqdı.



## MƏN QARANLIQ AŞİQİYƏM

Mən qaranlıq aşiqiyəm,
Tək həmdəmim gecələrdi.
Addım-addım tək gəzdiyim,
Bir də səssiz küçələrdi.

Solğun yanan fənərlərin işığında
Şütüyürəm dayanmadan.
Gəzə-gəzə öz ruhumla danışıram,
Uyuyanlar oyanmadan.

Qoxusunu duyan varmı gecələrin
Məndən başqa bu şəhərdə?
Sanki həyat yalnızlaşır,
Doğan günlə hər səhərdə...



## SUSUB QƏLƏM

Susub qələm...
Çağırmasan, səsləməsən lal kimidi,
Yazmaq eşqi tükənibdi,
Çivi çıxmış nal kimidi.

Susub qələm...
Yoxdu daha arzuları, xəyalları
Sanki ahıl bir qocadı.
Tükənibdi həyat eşqi,
Qıra bilmir qolundakı qandalları.

Susub qələm...
Yaman susub, xarab olmuş val kimidi,
Ayrı düşüb ağ vərəqdən
Öz-özünə yad görünür,
Daşa dönüb həyat eşqi, sal kimidi.

Susub qələm...
Toxunmayın, qoyun sussun,
Öfkəsini, qəzəbini,
Nisgilini, əsəbini
Öz içinə qoyun qussun.



# YOX

Mənim həyat hekayəmin yarısı var, yarısı yox...
Əkin sahəsi mislində, sünbülü var, darısı yox.
Susuz qalan dodaqların çatındakı laxta qanam,
Nə süzülüb axa bilməz, nə sağalmaz, çarəsi yox.

Bir ağacın budağından qopub, düşən bar kimiyəm,
Həzin-həzin səslənəndə, sarı simli tar kimiyəm,
Nə yox ola biləmmirəm, nə də bəlli var kimiyəm,
Bəlkə həyat bir nağıldı, biri vardı, birisi yox...

Könlüm toxdu bu dünyanın səfasına,
Sinə gərdim acısına, kədərinə, cəfasına,
Uymamışam nazlı-nazlı ədasına,
Kimsəyə qalmaz bu cahan, mirası yox.

Payızam mən, nə qış gəlmir çıxıb gedəm,
Nə yaz gəlmir, bu dünyadan səssiz itəm,
Bu sözlərim sanma ki sən birər sitəm
Həqiqətin sədasıdı, hecası var, sözləri yox.



# SİMASIZ ADAM

Sifəti pələngdi, ürəyi dovşan,
Əməli tülküdən geriyə qalmaz.
O qızıl balıqdı, pulları çin-çin,
Amma ki, dəryanın dibinə dalmaz.

Bir baxsan aslandı, bir baxsan köpək,
Yerinə görədir siması onun.
Zahirən erkəkdi, daxilən dişi,
Şalvarın altında gizlədir donun.

Sevir alqışlasın onu insanlar,
Təriflər deyilsin, yalan təriflər.
Var-yoxu yaltaqlar ordusu onun,
Bir də yaltaqlardan gələn təltiflər.

Sözüm sənədir, ey simasız adam!
Elə bilirsən ki, ağıllısan sən.
Bu gün mədh edənlər sabah söyəcək,
Axı bunu sən də yəqin bilirsən!



Etiraf edim ki, istedadlısan,
Bu qədər sifəti daşımaq çətin.
Hər kəsin hünəri deyildir, hərgah,
Bəzən mismar olmaq, bəzən kəlbətin.

Hərdən bir baltatək görünsən də sən,
Özgə əlləriylə özü kəsirsən.
Yadların önündə barı dik dayan,
Özündən güclünü görçək əsirsən.

Sənə hər nə desəm, hər nə söyləsəm,
Yenə aciz qalar, tükənər qələm.
İrinli yarasan, qanlı çibansan,
Sənə kim bulaşsa, çəkər dərd-ələm.



# ŞƏKİLLƏR

Bir şəhidin məzarında
Xatirələr başa döndü.
İçimdəki təlatümlər
Gözlərimdə yaşa döndü.

Barıt qoxan soyuq səngər
Andırardı evimizi...
Biz ki, dəcəl uşaqlardıq,
Qorxutmazdı düşmən bizi.

Köksümüzdə vətən eşqi,
Dilimizdə Allah vardı,
Yuxumuz ərşə çıxmışdı,
Soyuq qış bizə bahardı...

İndi bu daş məzarlardan
Mənə baxır daş şəkillər...
Bir ömürə sığmayacaq,
Ömürlük yaddaş şəkillər...



# İLAHİ

Elə yorulmuşam, elə bitmişəm...
Yolumu azmışam, sanki itmişəm.
Mən Sənə gəlmişəm, məndən getmişəm,
Çevirmə qapından məni, İlahi!

Küsmüşəm özümdən, yoxdur taqətim,
Küsmüşəm sözümdən, yox təravətim,
Sənə olan sevgim bir tək sərvətim,
Rəhm et bu quluna, rəhm et, İlahi!

Ruhum inildəyir, çoxdur günahım,
Sənsən mənim, bir tək Sənsən pənahım,
Bilirəm, yetişir sənə bu ahım,
Bu asi bəndəni əfv et, İlahi!

Bir addım irəli, üç addım geri,
Bu fani dünyada mən bir sərsəri.
Qoru içimdəki kiçik cövhəri,
O cövhərlə Səni bildim, İlahi!

Qarşında əyilmək ən böyük şərəf,
Beş vaxtda ibadət gətirər fərəh,
Üzümü tutduğum hər yer, hər tərəf,
Qüdrətinlə dolub, daşar, İlahi!

Bu qoca asiman hikmətlə dolu,
Səni xatırlayan şaşırmaz yolu.
Sağa bərəkət ver, Sən gizlət solu,
Haqq-hesab günündə gizlət, İlahi!






# EY ƏQSA

Köksümdəki yarasan
Sən, ey Məscidi-Əqsa!
Bu gün aləmi-İslam
Əgər səndən iraqsa,
Hesabını verəcək,
Buna hər bir göz yuman.
Əgər kimsə edirsə
Özü-özünə güman,
Əlim yoxsa bu işdə,
Babalı mənə dəyməz,
Yoxdursa duasında
Məzlumların ahları,
O insan öz belini
Haqqın önündə əyməz.

Bir bədəntək deyilsə
Səninçün müsəlmanlar,
Heç müsəlman olmasın!
Tökülən haqsız qanlar
Titrətmirsə ruhunu,
Satılmısan şeytana,
Sən ayrı səflərdəsən,
İman, İslam bir yana.

Yatmış müsəlmanları
Oyatmaq üçün məgər,
Səlahəddinmi gərək
Gorundan çıxıb gəlsin?
Daha nə lazımdı ki,
Bu susqunluq düzəlsin?



*İllüstrasiya:*
*Fərid Nəsibzadə*



Nəyə zillənib belə
Görən gözlər kor oldu?
Haqq üçün can verənlər
Öz yolunda yoruldu.

Dünyanın harasına
Baxsan nalələr, ahlar,
Kar edibdi bizləri,
Bizə hopan günahlar.

Bizdən ötürsə əgər
Partlayan bu bombalar,
Bizə toxunmurlarsa
Bu gün canı zorbalar,
Ədalətdirmi susmaq?...

Can verirsə körpələr
Gözümüzün önündə,
Vicdanlar sızlamırsa,
Yaşamayın, ölün də..

# O PAYIZ

O payız ruhumu alıb apardı...
Bir tək sevincimi, elə özümü.
Mənim özüm idin, ey dəli qadın!
İndi kəsər tutmur daha sözümü.

Soldu arzularım payız misalı,
Saraldı diləklər, yox oldu istək.
Bir vaxt yollarımı gözləyən qadın,
Sevincdən uçardın sən məni görcək.

Payızda sevmişdik bir-birimizi,
Payız bizə görə eşqin özüydü...
Yağan yağmurunu, əsən yelini
Sevdiyimiz payız eşqin sözüydü...

Sən tuta bilmədin o sözü, andı,
Daha payız gəlmir bizim tərəfə,
Artıq ox yayından çıxıb, gedibdi,
Dəyə bilməyibdi çünki hədəfə...







# SƏNƏ ŞEİR YAZIM

Sənə şeir yazım sakit gecədə,
Gözlərim görməsin nə yazdığımı.
Hisslərim qoy cızsın bir ağ vərəqi,
Şeirlər bələsin yalnızlığımı.

Gözüm necə çəkir intizarını
Bir tək Allah bilir, bir də ki gözlər.
Sənsizlik alovu qovurur məni,
Yana-yana insan bir ayrı özlər...

Başqadı gözünə səssizcə baxmaq,
O dəniz gözlərin səssiz danışar.
Batıram içində mən o gözlərin,
Həsrətdən hər gecə ürək alışar.

Sənə şeir yazım ulduzlu gecə,
Sayrışan ulduzlar həmdəmim olsun.
Sevgi badəsinə mey kimi süzül,
Qana-qana içim, ürəyim dolsun.

Süzül ürəyimdən hər bir zərrəmə,
Məst etsin ruhumu eşq sərxoşluğu.
Səni qucaqlayım qara gecələr,
Gecə dönüb olsun eşq meyxoşluğu.

Sən məndə ürəksən, sən məndə diləк,
Yazdığım şeirlər sənə həsrətim.
Sən hər hərfimdə, hər sözümdəsən,
Hər sətir, hər misra sənə möhnətim.





# DƏLİXANA

Yol boyu heç nəyin fərqində deyildim əslində. Adi bir səfər kimi - metro, sonra taksi və bir daha taksi. Çatdıq. Hansısa bir qapıdan içəri girdik. Qapıda dayanan polislər "kimin yanına gəlmisiniz?" deyə soruşdular. Dostum doqquzuncu şöbəni soruşdu, Şəhla həkimin qəbuluna gəldiyimizi dedi. Bizə istiqamət göstərdilər. Əslində dostum dediyim adamın da hansı dostum olduğunu xatırlamırdım. Tək bildiyim dostum olmağı idi. Niyə bu qədər əmin idim bilmirdim. Əslində hər şey qəribə idi. Buraxılış məntəqəsində bir neçə polis nəfəri və içəridə polis maşını. Özlüyümdə "niyə sayları bu qədər çoxdur" deyə düşündüm.

Doqquzuncu şöbəyə gedən yol çox qəribə və dolanbac idi deyə başım yola qarışdı. Ağ xalatlı insanlar və bildiyimiz dəlilər idi hər yer. Binanı belə bizə bir dəli göstərdi. Axı bu dəlilərin içində bizim nə işimiz var idi? Beynimə gələn sualları verməyə taqətim yox idi sanki.

"Baş həkim: Şəhla Əhmədova" yazılmış lövhə olan otağa girdik. Bizi otuz-otuz beş yaşlarında, ağ xalatlı bir xanım qarşıladı. Oturmağa yer göstərdi. Dostumla nəsə danışmağa başladılar. Dostum çantasından çıxarıb ona hansısa sənədləri verdi. Heç nə anlaya bilmirdim. Bəlkə də, heç anlamaq da istəmirdim. Bu qədər od-alovun içindən çıxıb, dik qalmağı bacaran biri necə bu hala düşüb deyə həkim gözlərimin içinə baxdı. Nə dediyini anlamırdım həkimin, amma sual da verə bilmirdim.

Anidən başımda bərk bir ağrı başladı. O qədər şiddətli idi ki, başımı yerindən qoparmaq istəyirdim. Gözümün önündə nələrsə canlanmağa başladı: ətrafa səpələnən güllələr, parçalanmış cəsədlər, inləyən yaralı əsgərlər...

Əlimdə süngü bıçağı hücum edirəm və qorxudan gözləri bərəlmiş dığalar aldıqları bıçaq zərbələrindən çığırışırlar...



Sonra sakitlik çökdü, hansısa uçmuş binanın divarına bayrağımızı asmağa çalışırıq...

Kimsə məni torpağın altından qazıb çıxarmağa çalışır, köməyə kimlərisə çağırır və sayları artır. "Sağdır!" deyə sevinclə qışqırır ən birinci gördüyüm adam....

Səhnə gözümdən itdi və yenə baş ağrısı, palata və müdaxilə etməyə çalışan həkimlər. Dostumun bərəlmiş gözləri isə düz mənə zillənib.

"İndi yaxşısanmı?" deyə baş həkim üzümü əllərinin içinə alıb soruşdu. Başımı yellədim.

Anidən qapını döymədən içəri girən hicablı və gözəl bir qadın ərklə həkimin əllərini üzümdən aşağı saldı və boynuma sarılıb hönkürtü ilə ağlamağa başladı. "Məni bağışla"

sözünü davamlı təkrar edirdi. Göz yaşları o qədər doğma idi ki... Göz yaşlarından biri dodağıma düşdü. Sanki yuxudan ayıltdı məni bu göz yaşı. Axı bu göz yaşının dadını bilirdim mən. Mən o göz yaşından öpmüşdüm. Deyəsən yaddaşım geri qayıtmağa başlayırdı...

Bulvardayıq, nəsə mübahisə edirik. Onu ağlatdım və uzaqlaşdım. Sonra ani hərəkətlə geri qayıtdım və axan göz yaşlarından öpdüm. Hə, lap dəqiq bu Nuray idi. Göz yaşını öpdüyüm qadın.

Hər şeyi xatırlamağa başlamışdım. İlahi, bu nə idi belə? Sanki böyük sürətlə yaddaşımı kimsə geri yükləyirdi. Dodağıma dəyən o göz yaşı sanki hər şeyi geri qaytarmışdı. Həkimlərin də üzləri gülürdü.

Artıq hər şey beynimdə yerinə otururdu. Ən son harda qalmışam deyə düşünməyə başladım. Ən son xatırladığım dalaşmağmız və onun gedişi idi. Görünür elə onda mən də getmişəm deyə gülümsədim.

- Nəyə gülürsən, dəli? - ağlamaqdan şişmiş gözəl gözləri ilə mənə baxıb soruşdu Nuray.

Bayaqdan ağlayan qadının üzünə gün doğmuşdu sanki.

- Getdiyimi xatırladım - dedim.

İlahi, mən danışa da bilirmişəm... Qəribə gəlirdi. Axı mən içimdə danışırdım ancaq...

Sual vermək növbəsinin məndə olduğunu düşündüm və "bura haradır?" deyə soruşdum. Suala o anda koridordan keçən xadimə xanım cavab verdi: DƏLİXANA....

# MÜNDƏRİCAT


Ön söz .......... 3
Məm şəhidəm .......... 4
Eşqə bulaşdım .......... 5
Dünya .......... 6
Payız sevdiyim .......... 7
Unutmuşam .......... 8
Səssiz gecələr .......... 9
Ölmüşəm bəlkə də .......... 10
Yada düşər .......... 11
Axı .......... 12
Payız sevgisi .......... 13
Darıxarsan .......... 14
Səni xatırladır .......... 15
Sən .......... 16
Sevdim .......... 17
Qara sevda .......... 18
Niyə qarşılaşdıq .......... 19
Kitabxana .......... 20
Səni elə unudaram .......... 21
Bu sevgi .......... 22
Bilmirəm .......... 23
Can .......... 24
Donub .......... 25
Dəlisov qadın .......... 26
Dəniz, göy, sən .......... 27
Anma onu .......... 28
Eşq dediyin .......... 29
Gecələr .......... 30
Gülüm .......... 31
Gərək .......... 32

Yağışdan rica ....................................................... 33
Mənim anam ........................................................ 34
Mənim dünyam ...................................................... 35
Mənə biraz zaman ver ............................................. 36
Mənə ondan danış ................................................. 38
Oğlum ................................................................. 39
Pərvanə ............................................................... 40
Qıl ..................................................................... 41
Sevdim səni .......................................................... 42
Bir gün ................................................................ 43
Sevmə ................................................................. 44
? ........................................................................ 45
Necəsən? ............................................................. 46
Səni sevirəm ......................................................... 47
Səssiz ol .............................................................. 48
Məni xatırlama (xatırla) .......................................... 49
Unutdum(?) .......................................................... 50
Unutmaq .............................................................. 51
Vur məni .............................................................. 52
Vətən .................................................................. 53
Yatmaq istəyirəm ................................................... 54
Yağ, ey yağış ........................................................ 55
Yenə ................................................................... 56
Yolum sənsən ........................................................ 57
Özləm .................................................................. 58
Elə bilmə ............................................................. 59
İlişmişəm ............................................................. 60
İlk sevgi ............................................................... 61
Yağış ürəkli sevdiyim .............................................. 62
Sarıl mənə ............................................................ 64
Getdi ................................................................... 65
Gedəcəm .............................................................. 66
Mən o adamam ....................................................... 67
Yoxsan daha bu şəhərdə .......................................... 68
Yenə gecə ............................................................. 69
Elə olar ............................................................... 70
Məni danmışam ...................................................... 71
Əhsən .................................................................. 72
Bu dünya .............................................................. 73
Sevmə məni .......................................................... 74
Qəbrimə gələn qadın .............................................. 75
Yaxşı yol .............................................................. 76
Ey könül ............................................................... 77
Ağla tənha qadın ................................................... 78
Sevda dediyin ....................................................... 79
Bilə bilmədim ........................................................ 80
Darıxmağın qoxusu ................................................. 81
Eşq adlı şərab ....................................................... 82
Mənə biraz şeir danış ............................................. 83
Baxma da... .......................................................... 84
Ey gül! ................................................................. 85
Salamat qal .......................................................... 86
Türkiyə ................................................................ 87
Allah ................................................................... 88
Üşüyürsən ............................................................ 89
Bilmədin .............................................................. 91
Mən qaranlıq aşiqiyəm ........................................... 92
Susub qələm ......................................................... 93
Yox ..................................................................... 94
Simasız adam ........................................................ 95
Şəkillər ................................................................ 97
İlahi .................................................................... 98
Ey Əqsa .............................................................. 100
O payız ............................................................... 102
Sənə şeir yazım .................................................... 103
Dəlixana .............................................................. 105

Araz Məmmədov
(Yaquboğlu)

# MƏN ŞƏHİDƏM

**Layihə rəhbəri:** Fərid Nəsibzadə

**Redaktor:** Şah Sənəm

**Dizayner:** Firuzə İbrahimova

Çapa imzalanmışdır: 2024. Kağız formatı 60x90 $^{1}/_{16}$
Ofset kağızı. Fiziki çap vərəqi 7,0.
Tiraj . Sifariş .



Bir də sizə şeirlərimin ilk kütləvi şəkildə ilgi və sevgi gördüyü "Laboratory of art" layihəsindən də qısaca bəhs etmək istərdim. Eyni zamanda admin olaraq təmsil etdiyim bu layihənin əsas hədəflərindən biri istedadlı insanların üzə çıxarılması və tanıtımlarının formalaşdırılmasıdır.

Ümid edirəm ki, bu kitaba sərf edəcəyiniz zaman sizdə xoş təəssürat izləri ilə yadda qalacaq.

AY

LABORATORY OF ART

@ARAZ_MEMMEDOV_YAQUBOGLU